### QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2013-cü İLİN MART AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Yenikənd kəndi | 05.03.2013 | Kənd məktəbi, saat 15⁰⁰ |
| Ziring kəndi | 12.03.2013 | Kənd məktəbi, saat 15⁰⁰ |
| Bunud kəndi | 19.03.2013 | Klub müəssisəsi, saat 11⁰⁰ |
| Seyidqışlaq kəndi | 26.03.2013 | Klub müəssisəsi, saat 11⁰⁰ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, torpaq və xəritəçəkmə, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# Sumqayıt hadisələrindən 25 il keçir

Sumqayıt hadisələrindən xeyli vaxt keçmişdir. 25 il bundan əvvəl—1998-ci il fevralın 28—29-da baş vermiş Sumqayıt hadisələrinin sifarişçisi sovet ittifaqının rəhbərliyi və xaricdəki ermə-ni havadarları olmuşdur. Tarixən böhtan və iftiralarla məşğul olan erməni terrorçuları təxribat törətmək üçün Sumqaytı seçməkdə yanılmamışlar. Çünki 300 minə yaxın əhalisi olan Sumqayıtda yaşayanların əksəriyyətini gənclər təşkil edirdi. Onları daha tez təxribata çəkmək mümkün idi. Sumqayıt hadisələrinin əsas icraçısı «Paşa» ləqəbli milliyyətcə erməni olan Eduard Qriqoryan oldu. O, 3 dəfə məhkum edilib, qatı cinayətkar kimi 9 il həbsdə yatmışdır. Qriqoriyan «Krunk» cəmiyyətinin xüsusi siyahısı əsasında bu cəmiyyətə üzvlük haqqı ödəməkdən imtina edən erməniləri məhv etmişdir.

Ermənilər bütün dünyaya çar çəkərək şivən qopardılar ki, azərbaycanlılarla bir dövlətdə yaşamaq mümkün deyil. Eyni zamanda erməni təbliğat maşını bütün dünyada «vəhşi azərbaycanlı» obrazı yaratmaq üçün bu hadisələri törətmişlər. Sumqayıt hadisələrində 32 nəfər öldürülmüşdür ki, ölənlərin 26 nəfəri erməni idi. Bu hadisələr nəticəsində 400 nəfərdən çox adam xəsarət almış, 200-dən çox mənzil qarət edilmiş, 50-yə yaxın mədəni məişət obyekti dağıdılmışdı.

Çox təəssüf ki, SSRİ prokurorluğu Sumqayıt hadisələrində günahsız olan azərbaycanlı vətəndaşlardan Ə. Əhmədovu, İ. İsmayılovu, O. Cəfərovu saxta ittihamlarla məhkum etdi. Hətta, Əhməd Əhmədov ən ağır cəzaya—güllələnməyə məhkum etmişdir. Amma hadisələrin əsl qatili E. Qriqoryan isə 12 il müddətinə azadlıqdan məhrum edilmişdir.

Sumqayıtda törədilən təxribatın əsas məqsədi Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğalına dünya ictimaiyyəti tərəfindən haqq qazandırmaq idi.

**«Qəbələ».**

# Doğma ölkəmizdə

### Ötən il inşaat işlərinin həcmi 20 faizə yaxın artıb

2012-ci ildə ölkədə yerinə yetirilən inşaat işlərinin həcmi əvvəlki illə müqaisədə 19,6 faiz artaraq 7 milyard 427,4 milyon manat təşkil edib.

Yerinə yetirilmiş işlərin həcminin 72,4 faizi yeni tikinti, yenidənqurma və genişləndirmə, 14,1 faizi əsaslı təmir, 11,3 faizi isə sair tikinti işlərinin payına düşüb. Qeyri-dövlət mülkiyyətli tikinti müəssisələri ümumi inşaat işlərinin 76 faizini yerinə yetirib. Ötən ilin yanvar-noyabr aylarında inşaat bölməsində çalışanların orta aylıq nominal əməkhaqqı əvvəlki illə müqayisədə 10,8 faiz artaraq 574,3 manat olmuşdur.

### Hazırda ölkə əhalisinin 70 faizi internet istifadəçisidir

Hazırda Azərbaycan əhalisinin 70 faizi internet, 50 faizi isə genişzolaqlı istifadəçisidir. Dünya İqtisadi forumunun «Tşe Qlobal İnformation Teehnloqy Report-212» hesabatında Azərbaycan bu göstəricisi üzrə MDB ölkələri arasında lidlerdir və ümumdünya orta göstəricisini ikidəfə üstələyir.

### Azərbaycanda turizm 18,8 faiz artmışdır

Ölkədə turizm potensialının imkanları ildən-ilə özünü göstərir. Təkcə son bir ildə Azərbaycanda turizmin inkişafı 18,8 faiz artmışdır. Bu artım son illərdə turizm infrastrukturunun inkişafı istiqamində görülən məqsədyönlü işlərin nəticəsidir.

Turizmin suratli inkişafı Qəbələdə də özünü göstərməkdədir. Təkcə ötən il Qəbələyə 51 min turist gəlmişdir. Bunun 11 min nəfərini xarici ölkələrdən gələn turistlər təşkil etmişdir.

### Son bir ildə İqtisadiyyata 22,1 milyard ABŞ dolları yatırılmışdır

Ölkədəki davamlı inkişafın, iri regional və beynəlxalq layihələrin həyata keçirilməsinin nəticəsidir ki, ötən bir il ərzində Azərbaycan iqtisadiyyatına 13,3 milyard dolları daxili və 8,8 milyard dolları xarici sərmayələr olmaqla cəmi 22,1 milyard dollar vəsait yatırılmışdır. Ümumiyyətlə, müstəqillik illərində ölkə iqtisadiyyatına ABŞ dolları ilə 140 milyarddan çox investisiya qoyulmuşdur.

### Vergi borclarının həcmi 16,2 faiz azalıb

Vergilər Nazirliyi tərəfindən həyata keçirilən tədbirlər nəticəsində 2012-ci il ərzində 2011-ci ildən qalan borclar da nəzərə alınmaqla mövcud olan borclar 17,1 faiz kq edilib. Nəticədə 1 yanvar 2013-cü il tarixə dövlət büdcəsinə borc məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 501,9 milyon manat və ya 16,2 faiz azalıb. Keçən ilin əvvəlinə olan 9.471 borclu vergi ödəyicisi və hesabat dövründə borcu yaranmış 195.311 vergi ödəyicisi də nəzərə alınmaqla görülmüş məlumatlandırma və izahat işləri nəticəsində 196.393 borclu vergi ödəyicisinin vergi borcları tamamilə ləğv edilib.

**Hazırladı:**
**Nadir ATAKİŞİYEV.**

# Müstəqillik tariximizdə önəmli hadisə

*yaxud 2013-cü ilin ilk uğuru—«Azərspace-1» telekommunikasiya peyki orbitə buraxılmışdır*

***Son illərdə Azərbaycanın uğurları sürətlə davam etməkdədir. Müstəqillik tariximizin qısa bir zaman kəsiyinə baxmayaraq, bu il fevral ayının 8-də Azərbaycanın ilk «Azərspace-1» telekommunikasiya peykinin orbitə çıxarılması xüsusi olaraq önəmli hadisə olmuşdur. Bu, əlamətdar hadisə Qafqaz respublikaları arasında da birincidir. Böyük uğura gətirib çıxaran səbəb də vardır. Bu səbəb ölkədə ümummilli lider Heydər Əliyevin Azərbaycanın uğurlu gələcəyi üçün miras qoyduğu siyasi kursdur. Cənab Prezident İlham Əliyev bu kursu yaradıcılıqla, yerli şəraitə, mövcud siyasi duruma uyğun olaraq uğurla həyata keçirir. Aparılan islahatlar hazırda Azərbaycan iqtisadiyyatını mövcud beynəlxalq maliyyə qurumları tərəfindən rəqabət qabiliyyətliliyinə görə MDB məkanında birinci, dünya miqyasında 46-cı yerə gətirib çıxarmışdır. «Azərspace-1» telekommunikasiya peykinin orbitə çıxarılması bir daha ölkənin sürətli inkişafından xəbər verir.***

Ölkə başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva fevral ayının 8-də «Azərkosmos» Açıq Səhmdar Cəmiyyətində (ASC) ilk Azərbaycan peykinin orbitə buraxılması münasibəti ilə təşkil olunmuş mərasimdə iştirak etmişlər. Elə həmin gün İlham Əliyev Dövlət başçısının 2008-ci ildə «Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması», 2009-cu ildə ölkədə kosmik sənayenin yaradılması və inkişafı üzrə dövlət proqramının təsdiq edilməsi haqqında, 2010-cu ildə «Azərkosmos» Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında sərəncamları qazanılan uğurlara geniş və işıqlı yol açmışdır. Azərbaycanda və Qafqazda əsas, habelə ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzinin yaradılması, bununla bağlı digər məsələlərin həlli ölkədə kosmik sənayenin inkişafında çox mühüm addımlar idi. Artıq tarixilik nöqteyi-nəzərindən çox qısa bir zamanda böyük işlər görülmüşdür. Nəticə isə ondan ibarətdir ki, Qafqazda ilk olaraq ölkəmizin telekommunikasiya peyki uğurla orbitə çıxarılmışdır. Cənab Prezident İlham Əliyev peykin orbitə buraxılmasını izləmiş, uğurlu və əlamətdar hadisə ilə əlaqədar Azərbaycan xalqını təbrik etmiş və geniş nitq söyləmişdir.

Peyk Cənubi Amerikada, Fransanın inzibati idarəçiliyində olan Fransız Qvianasındakı Kuru kosmodromundan—Qviana Kosmik Mərkəzindən üzərində üçrəngli Azərbaycan bayrağı olan «Ariane-5» daşıyıcı raketi ilə orbitə buraxılmışdır.

Faydalı yük üzrə 36 fəal transponderlə təchiz olunan və təqribən 3,3 ton çəkisi olan «Azərspace-1» peyki 46 dərəcə Şərq uzunluq dairəsində deostasionar orbitdə yerləşmiş və Avropa, Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regionunu əhatə edir. Orbitdə istismar müddəti 15 ildir. Peyk teleradio yayımı və telekommunikasiya xidmətlərinin göstərilməsi, eləcə də kooperativ və hökumət müştərilərinin tələblərinə cavab verən keyfiyyətli və dayanıqlı rabitə platformalarının təmin edilməsi üçün nəzərdə tutulmuşdur.

Peykin resurslarının 20 faizi Azərbaycanın tələbatını ödəmək üçün istifadə olunacaq, qalan 80 faizi isə dünya bazarlarına ixrac ediləcəkdir. Artıq satış üçün 40 faizinin şərti müqavilələri imzalanmışdır. «Azərspace-1» peykinin texnoloji dizaynı və geniş qoşulma imkanları vasitəsilə dünyanın təqribən üçdəbir hissəsini əhatə edəcək coğrafiya üzrə milyonlarla insan müasir informasiya və rabitə xidmətlərindən rahat istifadə edə biləcəkdir. 50-dən aprtıq ölkəni birləşdirən məkanda mühüm iqtisadi rol oynayacaqdır. Azərbaycan ərazisində keyfiyyətli televiziya və radio yayımı, o cümlədən sürətli İR xidmətlərinin göstərilməsini təmin edəcək, ümumiyyətlə, ötürülən bütün məlumatlara daha yaxşı nəzarət olunacaq, müxtəlif elektron hökumət layihələrinin həyata keçirilməsi, həmçinin məsafədən təhsil və elektron səhiyyə kimi mühüm proqramlar üçün əlverişli platforma yaradılacaqdır.